# Mədəniyyətin dayanıqlı inkişafda rolu və texnoloji investisiyalar mövzularında müzakirələr təşkil olunub

İqtisadiyyat və Mədəniyyət nazirliklərinin dəstəyi, İqtisadiyyat Nazirliyinin tabeliyində Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) və İslam Əməkdaşlıq Təşkilatının Gənclər Forumunun (ICYF) təşkilatçılığı ilə keçirilən Azərbaycan İnvestisiya və Mədəniyyət Sammiti öz işini davam etdirir.

Sammit çərçivəsində "Regionun əsas sosial və iqtisadi çağırışları: Nizami Gəncəvi üzrə baxış", "İnvestisiya qərarlarında mədəni ölçü", "Startap layihələrinə investisiya qoyuluşu" və "Davamlı inkişaf məqsədlərinə nail olunması üçün texnoloji investisiyaların rolu" mövzularında panel müzakirələr təşkil olunub.

Məlum olduğu kimi, 2021-ci il ölkəmizdə "Nizami Gəncəvi ili" elan edilib. Dünya ədəbiyyatının görkəmli nümayəndəsi, dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 880 illiyi ilə bağlı keçirilən sammit çərçivəsində xüsusi panel təşkil olunub. Nizami Gəncəvi Beynəlxalq Mərkəzi ilə birgə hibrid formatda keçirilmiş "Regionun əsas sosial və iqtisadi çağırışları: Nizami Gəncəvi üzrə baxış" mövzusunda paneldə Nizami yaradıcılığının dünya ədəbiyyatına və mədəniyyətinə verdiyi töhfə, iqtisadi, ticari və mədəni münasibətlərin Nizaminin əsərlərində təzahürü, şairin fikirlərinin müasir bazar iqtisadiyyatı dövrü ilə səsləşməsi, investisiyanın cəlb edilməsinə mədəni əlaqələrin təsiri haqqında məlumat verilib. Mədəniyyət nazirinin birinci müavini Elnur Əliyev, Kəşmir Universitetinin professorları Nasim Ahmad Şah və Qulam Nəbi Xaki, İslam Tarixi, İncəsənəti və Mədəniyyəti Araşdırma Mərkəzinin (IRCICA) baş katibi Mahmut Erol Kılıç mövzu ilə bağlı fikirlərini bölüşüblər.

"İnvestisiya qərarlarında mədəni ölçü" panelində dünyada cərəyan edən müxtəlif proseslər, rəqəmsallaşma və 4-cü Sənaye İqilabı fonunda mədəniyyətin üzləşdiyi çağırışlar, texnoloji inqilablar əsrində mədəniyyətə yeni baxış və dayanıqlı inkişafda gənclərin rolu, mədəni dəyərlərin qorunması, yaradıcı gənclərin dəstəklənməsi istiqamətlərində fikir mübadiləsi aparılıb. Mədəniyyət nazirinin birinci müavini Elnur Əliyev, Azərbaycanın Beynəlxalq İnkişafa Yardım Agentliyinin direktoru Elməddin Mehdiyev, Rusiya Federasiyasının Tatarıstan Respublikasının İnvestisiyaların İnkişafı Agentliyinin layihə meneceri Alina Ravzutdinova və sammitin təşkilinə dəstək göstərən "Türk Hava Yolları"nın İnsan resursları üzrə baş direktoru Abdulkerim Çay mövzuya dair çıxış ediblər.

"Startap layihələrinə investisiya qoyuluşu" mövzusunda paneldə startapların maliyyələşdirilməsi, bank sektorunun inkubasiya mərkəzləri ilə əməkdaşlığı, iqtisadiyyatın hərəkətverici qüvvəsi olan mikro, kiçik və orta sahibkarlığın kreditləşdirilməsi, bu sahədə bankların təcrübəsi barədə məlumat verilib. Mövzu ilə bağlı "Paşa Bank", Azərbaycan Beynəlxalq Bankı, sammitə dəstək göstərən "Kapital Bank", eləcə də "Alkan Consulting", Türkiyənin "Halkbank" və "Ziraat Katılım Bankı"nın nümayəndələri fikirlərini bölüşüblər.

"Davamlı inkişaf məqsədlərinə nail olunması üçün texnoloji investisiyaların rolu" panelində isə "bp Azerbaijan" şirkətinin vitse-prezidenti Bəxtiyar Aslanbəyli, BMT-nin İnkişaf Proqramının Azərbaycan nümayəndəliyinin akseleratorunun rəhbəri Nərgiz Quliyeva, Türkiyə-Azərbaycan İşgüzar Şurasının (DEİK) sədri Selçuk Akat, Azərbaycan-Türkiyə İş Adamları Birliyinin İdarə Heyətinin sədri Cemal Yanğın, tədbirə onlayn qoşulan Malaziyanın "Perdana Dialogue" Fondunun baş icraçı direktoru Rafi Yusuf texnoloji investisiyaların önəmi, ətraf mühitə və iqlim dəyişikliklərinə təsiri, BTM-nin Dayanıqlı İnkişaf Məqsədləri, insan kapitalı, innovativ inkişaf, müasir texnoloji vasitələrdən istifadə, kiber təhlükəsizlik kimi istiqamətlərdə çıxış edib, iştirakçıların suallarını cavablandırıblar.

Azərbaycan.- 2021.-31 oktyabr.- S.6.